# Əmək bazarı göstəricilərinin iqtisadi sektorlar və regionlar üzrə diversifikasiyasının qiymətləndirilməsi

**Yadulla HƏSƏNLİ**
*AMEA Kibernetika İnstitutunun "Sosial-iqtisadi proseslərin modelləşdirilməsi" laboratoriyasının müdiri, i.e.d*

**Gülzar TAHİROVA**
*AMEA Kibernetika İnstitutunun dissertantı*

*Ölkənin ümumi iqtisadi inkişafı onun bütün regionlarına, o cümlədən, yaş fərqindən, təhsilindən, hansı sektorda işləməsindən asılı olmayaraq bütün əhalisinə eyni səviyyədə təsir etməlidir. Bu təsirlər xeyli dərəcədə iqtisadi inkişafa hansı yollarla nail olunmasından asılıdır. İqtisad elmindən məlumdur ki, müasir bazar münasibətləri şəraitində dövlətin iqtisadi funksiyalarından olan iqtisadi artıma nail olunmasının ən mühüm istiqaməti məşğulluğa nəzarətin həyata keçirilməsidir [1, səh.104]. İqtisadiyyatın yüksək inkişaf səviyyəsi, bütün iqtisadi sektorlarının tənzimlənmiş qaydada fəaliyyətindən, həmçinin bu fəaliyyət növləri üzrə məşğul əhalinin düzgün bölüşməsindən (diversifikasiyasından) yaranır.*

Məlum olduğu kimi işsizlik və məşğulluq bütün dövrlərdə dövlətlərin iqtisadi siyasətlərinin diqqət mərkəzində olan məsələ olmuşdur. Çünki davamlı inkişaf birbaşa olaraq əmək ehtiyatlarından, işləmək istəyən, ən əsası isə iş tapa bilən insanların fəaliyyəti ilə bağlıdır. Belə ki, əmək təklifi və əmək tələbinin bir-birini tamamlaması, və ya tarazlığa yaxın olan bir əmək bazarı nöqtəsində ola bilməsi vacib məsələdir.

İqtisadi inkişafa doğru atılmış hər bir addım həm iqtisadi artımı, həm də məşğulluğu artırmış olur. Həm regionlarda iqtisadi fəaliyyət növləri üzrə məşğulluğun olması, həm də fəaliyyət növlərinin diversifikasiyası (müxtəlifliyi) iqtisadi artıma doğru atılmış addım hesab olunur. Məlumdur ki, iqtisadi artımın sadə insanlara təsiri ilk növbədə onların əmək haqlarında özünü göstərir. Bu baxımdan əmək haqlarının da iqtisadi fəaliyyət növləri və regionlar üzrə müxtəlifliyi və bunların daha dəqiq bir kəmiyyətlə ifadə oluna bilməsi maraqlı olardı.

Əmək bazarını xarakterizə edən göstəricilər üzrə diversifikasiyanın hesablanması və təhlillərin aparılması sahəsində müxtəlif metodologiyalardan istifadə edilir [2-6]. Belə ki, faktorun yerləşməsi (LQ-**Location quotient**) indikatoru təmərküzləşmənin statistik ölçülməsini əks etdirir. Bu indikator konkret regionda konkret fəaliyyət növünün coğrafi təmərküzləşməsini ölkənin orta göstəricisinə nəzərən göstərir. Hesablama düsturu aşağıdakı kimi göstərilə bilər .



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

$$LQ = \frac{U}{V}\ .$$

burada $U$ - regionda işçi qüvvəsinin iqtisadi fəa-liyyət sahəsində (sektorda) işləyənlərin ümumi sayında faizi, $V$ - həmin sektorda işləyənlərin ölkənin ümumi işçi qüvvəsində faizidir.

Məsələn, əgər regionun əmək qüvvəsinin 60 faizi kənd təsərrüfatında işləyirsə, bu zaman isə ölkə üzrə bütün işçi qüvvəsinin ancaq 40 faizi kənd təsərrüfatında çalışırsa, onda işçi qüvvəsinin bu region üzrə təmərküzləşmə səviyyəsi, LQ = 60/40 = 1.5 olar.

LQ> 1 olması bu sahənin (sektorun) daha çox təmərküzləşməsini göstərir.

LQ = 1 olması ölkənin orta göstəricisinə əsasən gözlənən təmərküzləşməni göstərir.

LQ <1 olması bu sahənin (sektorun) daha az təmsil olunmasını göstərir.

Faktorun yerləşməsinin (LQ) hesablanmasını sadə bir nümunə üzərində göstərək:

Faktorun yerləşməsinin (LQ) hesablanmasına baxaq (cədvəl 1).

**Cədvəl 1. Faktorun yerləşməsinin (LQ) hesablanmasına nümunə**

| | *i sahəsində işləyənlər* | *Cəmi işləyənlər (t)* | *sahənin (sektorun) ərazidə payı* |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| Lokal ərazi (e) | 10 | 100 | 10,0% |
| Əsas ərazi (E) | 500 | 10 000 | 5,0% |

*i* sahəsinin faktorunun yerləşməsi *(LQi) = 2,00,*

$$LQi = [(ei/et) / (Ei/Et)],$$

$$2 = [(10\%) / (5\%)].$$

Məşğulluq və əmək ehtiyatlarında olan diversifikasiyanın hesablanması üçün Hachman indeksi (*HI*) adlanan indeksi maraq kəsb edir. İndeksin hesablanma qaydası aşağıdakı kimidir [7]:

$$HI_t = \frac{1}{\Sigma_j\ (EMPregion_{jt} / EMPölkə_{jt} * EMPregion_{jt})},$$

burada, $*EMPregion_{jt}$ - *t* ilində region üzrə məşğulların *j* sənaye sahəsində payı;

$EMPölkə_{jt}$ - t ilində ölkə üzrə məşğulların j sənaye sahəsində payıdır. Bu indeks həmişə 1-dən kiçik qiymət alır. 1-ə yaxın olması daha yaxşı diversifikasiyadan, 0-a yaxın olması daha az diversifikasiyadan xəbər verir.

Hachman indeksinin hesablanmasını sadə bir misal üzərində *(cədvəl 2)* göstərək.

Hachman indeksi ABŞ iqtisadiyyatının müxtəlif sahələri və ştatları üçün hesablanmışdır. Bu indeks haqqında müxtəlif fikirlər yürüdən iqtisadçılar indeksin iqtisadi artımla əlaqəsinin nə dərəcədə inamlı olub olmamasının əsaslandırılmasının vacibliyini qeyd edirdilər. Yəni əsas sual o idi ki, doğrudanmı iqtisadiyyatın diversifikasiyası iqtisadi artımın dayanıqlığına təsir edir. Bu məqsədlə 1999-cu ildə ABŞ iqtisadiyyatı üçün hesablanan Hachman indeksinə uyğun korrelyasiya əlaqəsinə baxılmışdır. Belə ki, iqtisadi artımı və ya dayanıqlığı ifadə edən dəyişən kimi iş yerlərinin yaranması və ya artması, iqtisadiyyatın diversifikasiyasını ifadə edən göstərici olaraq isə Hachman indeksi seçilmişdir.

**Cədvəl 2. Hachman indeksinin (Hİ) hesablanmasına nümunə**

| | Sahədə payı | | | |
|---|---|---|---|---|
| *j sahəsi (sektoru)* | *Ölkə* | *Ölkənin regionu (iqtisadi rayonu)* | *LQ* | *LQ çəkili pay* |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1 | 25,0% | 100,0% | 4,0 | 4,0 |
| 2 | 25,0% | 0,0% | 0,0 | 0,0 |
| 3 | 25,0% | 0,0% | 0,0 | 0,0 |
| 4 | 25,0% | 0,0% | 0,0 | 0,0 |
| | | | Cəm | 4,0 |
| | | | Hachman İndeksi(HI) | 0,25 |

$$HI = \frac{1}{\sum_j \left[ \left( EMP_{\text{Re}\,gion_j} / EMP_{\text{Ulke}_j} \right) \times EMP_{\text{Re}\,gion_j} \right]} = \frac{1}{[(100/100)*(100/25)+(0/100)*(0/25)+(0/100)*(0/25+(0/100)*(0/25]} = 0,25$$

Müəyyən olunmuşdur ki, diversifikasiya olunmuş iqtisadiyyat zəif diversifikasiya olunmuş iqtisadiyyata nisbətən daha dayanıqlı iqtisadi artıma malikdir [7].

Qeyd edildiyi kimi regionların və əhali qruplarının gəlirlərinin və məşğulluğunun dayanıqsızlığı iqtisadiyyat üçün yaxşı hal deyil və bu hal ümumilikdə bütün iqtisadiyyatın məşğulluq və gəlirinə təsir edir. Diversifikasiya əmsalı da bu təsirlərin aradan qaldırılması məqsədilə istifadə olunan əmsaldır. Hesab olunur ki, iqtisadi siyasət elə qurulmalıdır ki, o bütün region və əhali qruplarının, hətta peşə ixtisaslarının müxtəlifliyi təmin olunmuş olsun. Müxtəlif regionların inkişaf səviyyəsi bir birindən kəskin fərqlənməməlidir. İqtisadiyyatın birtərəfli inkişafı ölkənin sosial-iqtisadi inkişafının davamlı xarakter alması risklərini artırır.

İqtisadiyyatın rəngarəngliyinin, eləcə də regionların iqtisadiyyatının müxtəlif aspektlərini, o cümlədən məşğulluğun, əmək haqlarının qeyri-bərabər inkişafını xarakterizə etmək üçün diversifikasiya əmsalından istifadə edilir [8]:

$$D = \frac{S^2}{S_1^2 + S_2^2 + \cdots + S_n^2}, \quad 1 \le D \le n,$$

burada,

*D* - iqtisadiyyatın diversifikasiya əmsalıdır və 1 ilə n arasında dəyişə bilər (*n* – regionların və ya fəaliyyət sahələrinin sayıdır). *D*-nin vahidə yaxın olması arzu olunmayan, *n*-ə yaxınlaşması isə arzu olunan haldır.

*S* - iqtisadiyyatın bütün sahələri və ya regionların müvafiq göstəricisini əks etdirir. Həmçinin *S* kimi iqtisadiyyat üzrə məşğul əhalinin sayı, muzdla işləyənlərin sayı, iqtisadiyyatda məşğul qadınların sayı da götürülə bilər. Məsələn, əgər biz ölkədə əmək

resurslarının sahələr və ya regionlar üzrə hansı səviyyədə bölgüsünü qiymətləndiririksə, onda $S$ ölkə üzrə bütün əmək ehtiyatlarının qiymətini göstərir. $S_i$ ($i=\overline{1,n}$)- isə $i$-ci sahənin və ya regionun uyğun göstəricisini (məşğul əhalini, muzdla işləyənləri və s.) göstərir. Aydındır ki,

$$S = S_1 + S_2 + ... + S_n.$$

Adətən, hesab etmək olar ki, diversifikasiya əmsalı orta qiymətdən böyük olduqda, yəni $D> \frac{n+1}{2}$ olduqda ölkədə regionların inkişafının tarazlıq səviyyəsi qənaətbəxş, $D< \frac{n+1}{2}$ olduqda isə qeyri-qənaətbəxşdir. Təbii ki, bütün ölkələr üçün diversifikasiya əmsalı 1-dən və n-dən fərqlidir.

Azərbaycanın əmək bazarının necə formalaşdığını, məşğulların region və iqtisadi fəaliyyət sahələri üzrə necə yerləşdiyini, əmək bazarının vacib faktoru olan əmək haqqının iqtisadi fəaliyyət və regionlar üzrə necə bölüşdürüldüyünü kəmiyyət olaraq görmək üçün diversifikasiya əmsalından istifadə etmək olar. Məlum olduğu kimi Azərbaycanda məşğul əhalinin böyük bir qismi kənd təsərrüfatında çalışır. Sənayedə də çalışanların böyük payı isə Bakı şəhərinə düşür. Bu fərqi orta aylıq əmək haqqında da görmək mümkündür. Belə ki, Bakı şəhəri üzrə orta aylıq əmək haqqı digər regionlardan çoxdur (qrafik 1).

Göründüyü kimi ən aşağı orta aylıq əmək haqqı Şəki-Zaqatala iqtisadi regionunda olmuşdur. Regionlar üzrə muzdla işləyənlərin sayına nəzər salsaq eyni mənzərəni, yəni diversifikasiya zəifliyini görmüş olarıq (qrafik 2).

Əmək bazarı üçün müxtəlif mövqelərdən hesablanmış diversifikasiya göstəriciləri cədvəl 3-də verilmişdir.

Hesablanmış diversifikasiya əmsallarına ayrı-ayrılıqda izahat verməyə çalışaq.

Məlum olduğu kimi Azərbaycan statistikasında məşğul əhali 16 iqtisadi fəaliyyət




*Qrafik 1.İqtisadi rayonlar üzrə orta aylıq əmək haqqı (2008-cu il)*




*Qrafik 2. İqtisadi rayonlar üzrə muzdla işləyənlərin sayı, min nəfərlə (2008-ci il)*

*Cədvəl 3. Əmək bazarının müxtəlif göstəricilərinə əsasən diversifikasiya əmsalları*

| NN | Göstəricilərin adları | 2000 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Məşğul olan əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü | 4.6 | 4.7 | 4.8 | 4.8 | 4.9 | 4.9 | 5.0 | 5.1 |
| 2 | İqtisadi fəaliyyət növləri üzrə muzdla işləyən işçilərin sayı | 8.2 | 7.9 | 7.4 | 7.2 | 7.2 | 7.4 | 7.5 | 7.6 |
| 3 | İqtisadi fəaliyyət növləri üzrə muzdla işləyən qadınların sayı | 4.8 | 4.5 | 4.4 | 4.5 | 4.6 | 4.7 | 4.6 | 4.6 |
| 4 | Əmək ehtiyatlarının diversifikasiyası | 1.07 | 1.07 | 1.07 | 1.07 | 1.06 | 1.06 | 1.06 | 1.06 |
| 5 | İqtisadi fəal əhaliyə görə qadınların məşğulluğunun diversifikasiyası | 2.00 | 2.00 | 2.00 | 2.00 | 2.00 | 2.00 | 2.00 | 2.00 |
| 6 | Məşğullara görə qadınların diversifikasiyası | 2.00 | 2.00 | 2.00 | 2.00 | 2.00 | 2.00 | 2.00 | 2.00 |
| 7 | İşsizlərə görə qadınların diversifikasiyası | | | | 2.00 | 2.00 | 2.00 | 1.99 | 1.95 |
| 8 | İqtisadi fəaliyyət növləri üzrə orta aylıq nominal əmək haqqı | 9.64 | 9.13 | 9.11 | 9.46 | 8.62 | 9.22 | 8.54 | 8.90 |
| 9 | İqtisadi rayonlar üzrə muzdla işləyənlərin sayı | 4.28 | 4.59 | 5.17 | 4.37 | 4.15 | 4.34 | 4.28 | 4.25 |
| 10 | İqtisadi rayonlar üzrə muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı | 9.95 | 9.89 | 9.10 | 9.12 | 9.33 | 9.14 | 9.34 | 9.70 |
| 11 | İqtisadi rayonlar üzrə məşğulluq xidməti orqanlarında işsiz statusu alan şəxslərin sayı | 7.2 | 7.1 | 7.1 | 7.1 | 7.0 | 7.0 | 6.9 | 6.7 |

sahəsi üzrə qruplaşdırılır. Bu sahələrdən isə əhalinin ən çox məşğul olduğu sahə kənd təsərrüfatıdır. Hesablamanın nəticəsi öz tarazlı səviyyəsinə yaxın rəqəm olduğundan bu diversifikasiyanın qənaətbəxş olduğundan xəbər verir. 2007-2008-ci illərdə isə diversifikasiya əmsalının artma meylliliyi vəziyyətin daha da yaxşılaşdığını deməyə əsas verir.

İqtisadi fəaliyyət növləri üzrə muzdla işləyən işçilərin sayı üçün hesablanmış diversifikasiya əmsalı məqbul səviyyəsinə yaxındır. Belə ki, muzdla işləyənlərin çalışdığı iqtisadi fəaliyyət sahələri 15 olduğundan, diversifikasiya əmsalının tarazlı səviyyəsi ((15+1)/2=8) 8 olur, bu da hesablanan nəticələrin bu rəqəmə yaxın olduğunu göstərir. Bunun əsas səbəbi isə muzdla çalışanların böyük hissəsinin dövlət sektorunda olmasıdır. Lakin son illərdə məşğulların ya qeyri dövlət sektoruna keçməsi və ya işdən azad olunma ilə əlaqədar olaraq diversifikasiya səviyyəsində tarazlılıq pozulmuşdur. Bu da öz əksini diversifikasiya əmsalının son illərdə 7,6-ya düşməsi ilə göstərir. Yuxarıda qeyd olunan nəticələri qrafik 3-də görmək olar.

Bundan başqa qadınların əmək bazarında tutduğu mövqeni, məşğulluqda olan payını araşdırma üçün diversifikasiya əmsalı hesablanıb.

Məlum olduğu kimi iqtisadi fəaliyyətdə və ümumiyyətlə əmək bazarında stimul verən, həmçinin çox vacib iqtisadi faktor olan əmək haqqının necə diversifikasiya olduğunu da araşdırmaq maraqlı məsələdir. Diversifikasiya əmsalı tarazlı qiymətinə yaxın olsa da son illərdə azalmışdır. Xüsusən 2005 və 2007-ci illərdə diversifikasiya əmsalının azalması baş vermişdir (qrafik 4). Bu da əmək haqlarının artmasına rəğmən onun ayrı-ayrı sahələrdə eyni artımla olmamasıdır. Belə ki, mədənçıxarma və emal sənayesində, həmçinin tikinti sektorunda əmək haqqı artımı nisbətən daha çox artmışdır.

Qrafik 5-də regionlar üzrə və regionların




*Qrafik 3. Diversifikasiya əmsallarının dinamikası*




*Qrafik 4. İqtisadi fəaliyyət sahələri üzrə orta aylıq əmək haqqının diversifikasiya əmsalının dinamikası*

iqtisadi fəaliyyət sektorları üzrə məşğulluq və əmək haqqı üzrə hesablanmış diversifikasiya əmsallarının dinamikası verilmişdir.

İqtisadi rayonlar üzrə muzdla işləyənlərin sayının statistik rəqəmlərinə baxsaq görərik ki, doğrudan da muzdla işləyənlərin çox böyük hissəsi Bakı və Abşeron iqtisadi rayonlarında yerləşmişdir. Bu baxımdan da diversifikasiya əmsalının tarazlı qiymətindən kiçik rəqəm alınmasını gözləmək olardı. 12 iqtisadi rayona baxıldığından diversifikasiya əmsalının tarazlı qiyməti (12+1)/2=6.5 olduğundan görürük ki, hesablamanın nəticəsi bundan kiçik rəqəmi göstərir. 2000-2008-ci illər ərzində yalnız 2003-cü ildə diversifikasiya əmsalı nisbətən tarazlı səviyyəyə yaxın olmudur. Muzdlu




*Qrafik 5. Diversifikasiya əmsallarının dinamikası*

işçilərin artımının əsasən bir regionun hesabına olması diversifikasiya əmsalını aşağı salır. Bu isə həmin regionların iqtisadi artımda payının az olması və iqtisadi inkişafın dayanıqlığının risklərini artırır.

İqtisadi rayonlar üzrə məşğulluq xidməti orqanlarında işsiz statusu almış insanların sayının diversifikasiyası isə demək olar ki eynidir. Amma bu yalnız məşğulluq xidməti orqanlarında qeydiyyatdan keçənlərə aiddir. Belə ki, işsiz olan bir çox insanlar var ki, qeydiyyatdan keçmirlər. Bir faktoru da qeyd etmək lazımdır ki, işsizlik statusu alanlar üzrə eləcədə əmək bazarının bir sıra göstəricilərinin statistik rəqəmləri əsasında hesablanmış diversifikasiya əmsallarının dayanıqlıq səviyyəsindən nisbətən aşağı alınmasına fiziki və hüquqi şəxslərin vergilərdən yayınmaları üçün (əsasən Sosial Müdafiə Fonduna ödəmələrdən, əmək haqqı vergisi və əlavə dəyər vergisindən) rəsmi sənədlərdə işçilərin sayının və əmək haqlarının aşağı göstərmələri müəyyən təsir edir.

*Я.Г.Гасанлы, Г.И.Тахирова*

**Оценка и анализ диверсификации отраслей экономики и регионов по показателям рынка труда**

*Резюме*

В статье проведены расчеты и анализирован коэффицент диверсификации некоторых показателей рынка труда на основе статистических данных за 2000-2008 гг.

*Yadulla Hasanli, Gulzar Tahirova*

**The estimation of diversification coefficient on the economic sectors and regions of labor market indicators**

*Summary*

İn this paper the diversification coefficient of some labor market indicators are calculated on the basis of statistical data for the 2000-2008 years and the analysis is conducted.

*Ədəbiyyat*

1. Макконнелл К.Р., Брю С.А. Экономикс. В 2 т.: Пер. с анг.- Том 1, Баку, «Азербайджан», 1992.
2. Barth, J., Kraft, J. and Weist, P. (1975) A portfolio theoretic approach to industrial diversification and regional employment. Journal of Regional Science, 15(1), pp. 9-15.
3. Conroy, M. (1974) Alternative strategies for regional industrial diversification. Journal of Regional Science, 14, pp. 31-46.
4. Conroy, M. (1975) The concept and measurement of regional industrial diversification. Southern Journal of Economics, 41, pp. 492-505.
5. Schoening, N. and Sweeney, L. (1991) Applying an industrial diversification decision model to small regions. The Review of Regional Studies, 22(1), pp. 14-17.
6. St Louis, L. (1980) A measure of regional diversification and efficiency. Annals of Regional Science, 14, pp. 21-30.
7. Eric Moore , Measuring Economic Diversification, 2001, , OLMIS - Oregon Employment Department, USA , Published Sep-28-2001.
8. Y.H.Həsənli, M.Murtuzayeva, S.Sadiq, İ.Əsgərov "İqtisadi inkişafın sahələr üzrə şaxələnməsi:diversifikasiya əmsalı"//AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər, I buraxılış, 2010, 24-28.

♦